**Xalq qəzeti**. - 2020.- 16 avqust. - № 161. - S. 3

# Türkiyə – Azərbaycan müttəfiqliyi hələ çox zəfərlər qazanacaq

**Jalə Əliyeva,**
Milli Məclisin deputatı, professor

**Mən dəfələrlə demişəm ki, bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur. Bu, həqiqətdir. Bu, həm tarixi və etnik köklərə əsaslanan həqiqətdir, eyni zamanda, biz – iki qardaş ölkə öz siyasətimizlə bu birliyi möhkəmləndiririk.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

“Bir millət, iki dövlət” – Azərbaycan və Türkiyə. Bu gün dünyada ikinci bir nümunə, analoq tapmaq olmaz ki, bir-birinə bu qədər yaxın, sıx bağlı olsun. Bu, təsadüfi deyil. Bu, sırf qan, kök, soy bağlılığıdır. Dilimiz, dinimiz, ruhumuz, qanımız, canımız birdir. Türkiyənin sevinci sevincimiz, kədəri kədərimizdir. Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci Türkiyənin sevincidir...

Bu, keçmişdə də belə olub, bu gün də belədir, sabah da belə olacaq. Kimsənin ötən dönəmlərdə bu birliyi, sarsılmazlığı poza bilmədiyi kimi, bun-dan sonra da heç bir gücün, qüvvənin bu vəhdəti pozması, sarsıtması mümkün olmayacaq. Necə ki, çar Rusiyası, 71 illik sovet boyunduruğu bu birliyi, ruh, kök bağlılığını sarsıda, məhvərindən oynada bilmədi... Ona görə də yenidən buna cəhd edən qüvvələr, min bir fitnə-fəsad ilə öz məkrli niyyətlərinə çata biləcəklərini düşünənlər öz murdar əməllərindən əl çəksələr yaxşı olar.

Atalar sözündə deyildiyi kimi, “dəyirman öz işindədir, çax-çax baş ağrıdır” və ağrıdacaq... Üzərimizə nə qədər çox gələcəklərsə, biz də bir o qədər güclənəcəyik, biz bir millət, iki dövlət olaraq daha da qüvvətlənəcəyik, daha sıx tellərlə bir-birimizə bağlana-cağıq.

Heç kim üçün sirr deyil ki, Azərbaycan–Türkiyə qardaşlığı, dost-luğu, əməkdaşlığı, müttəfiqliyi 1993- cü ilin iyunundan – ulu öndərimizin ikinci dəfə hakimiyyətə qayıdışından, o cümlədən. ümummilli liderimizin yolunu və siyasətini uğurla, layiqincə davam etdirən Prezident İlham Əliyevin prezident seçilməsindən, eləcə də Rəcəb Tayyib Ərdoğanın Türkiyənin Baş Nazi-ri və Prezidenti olmasından sonra daha da güclənib, yeni səviyyəyə yüksəlib. Həm dövlətlərimiz, xalqlarımız ara-sında qardaşlıq, dostluq, müttəfiqlik münasibətləri ən yüksək səviyyəyə qalxmış, həm də liderlərimizin dostluq və qardaşlıq münasibətləri nümunəyə çevrilmişdir. Bu gözəl, yüksək səviyyəli münasibətlərin nəticəsidir ki, hazırda həm Azərbaycan, həm də Türkiyə nəinki yerləşdikləri coğrafiyanın, bütövlükdə, dünyanın əsas güc mərkəzlərindən, söz-nüfuz sahiblərindən birinə çevrilmişdir.

Ölkələrimizin birgə razılığı və iştirakı olmadan bölgədə, bu coğrafi-yada heç bir beynəlxalq və regional layihənin həyata keçirilməsi mümkün ola bilməz və olmayacaq. Son illər icra edilən layihələr, o cümlədən TANAP da məhz bu birgə əməkdaşlığın, qardaşlığın təzahürüdür. Hər iki dövlət, eyni zaman-da, bütün arenalarda, platformalarda, beynəlxalq və regional təşkilatlarda hər bir məsələdə vahid mövqe sərgiləyir. Azərbaycan terrorizmə qarşı mübarizədə daim Türkiyənin yanındadır, onun bütün addımlarını birmənalı şəkildə dəstəkləyir. Öz növbəsində, Türkiyə Dağlıq Qarabağ məsələsində daim Azərbaycanın mövqeyindən çıxış edir, münaqişənin yalnız ölkəmizin ərazi bü-tövlüyü və suverenliyi çərçivəsində həll olunmasını tələb edir. Təsadüfi deyil ki, bu günlərdə Azərbaycan -- Ermənistan sərhədinin Tovuz istiqamətində növbəti erməni təxribatı nəticəsində yaranan gərginlik zamanı ilk etiraz səsini ucal-dan, Azərbaycanı birmənalı dəstəkləyən, bir daha bütün addımlarında onun yanında olduğunu və olacağını bildirən məhz qardaş Türkiyə hökuməti oldu. Dünya bununla daha bir mesaj aldı ki, Türkiyə–Azərbaycan, vəhdəti sözdə deyil, əməldədir.

Son bir neçə gündə qeydə alınan faktlar isə Azərbaycan –Türkiyə qar-daşlığında yeni, növbəti parlaq, könül oxşayan, qəlblərə rahatlıq gətirən, gələcəyə inam yaradan addımlardır. Bir gün ərzində Azərbaycan Xarici İşlər və Müdafiə nazirlərinin Türkiyəyə səfər etməsi, yüksək səviyyəli görüşlər keçirməsi, xüsusilə, hər iki nazirin Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilməsi, eyni za-manda, Türkiyə Silahlı Qüvvələrinin əsgər və zabitlərinin Azərbaycana gəlməsi, növbəti birgə hərbi təlimlərin keçirilməsi, bununla düşmənə və onun havadarlarına gözdağı verməsi, eləcə də Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın başçılığı ilə yüksək səviyyəli hərbi nümayəndə heyətinin ölkəmizə səfər etməsi, Prezident, Ali Baş Ko-mandan İlham Əliyevlə görüşməsi hər birimizi qürurlandırır və iftixar hissi doğurur. Bunlar sözlə ifadəsi mümkün olmayan hisslərdir.

Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Prezi-dent İlham Əliyevin görüşdə söylədiyi fikirlər deyilənlərin əyani təsdiqi və növbəti təcəssümü oldu: “Bir ay bundan öncə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi hü-cumu nəticəsində hərbçilərin və mülki şəxsin həlak olması bir daha göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Bizi ilk və birmənalı şəkildə

dəstəkləyən ölkə Türkiyə olmuşdur. Əziz qarda-şım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan, hörmətli cənab nazir, siz, Xarici İşlər naziri, digər vəzifəli şəxslər bir neçə dəfə çox kəskin və ciddi açıqlamalar vermisiniz ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və hər zaman Azərbaycanla bir yerdə olacaq-dır. Bu, bizi daha da ruhlandırır və yenə də bizim bir-birimizə nə qədər yaxın olduğumuzu göstərir...”

Həmçinin belə bir əminlik ifadə edildi ki, bizim qardaşımız – Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti bu günlər ərzində Azərbaycanda olarkən burada öz vətənlərində olduğunu gördü. Onlar Türkiyəyə döndükdən sonra da bu isti xatirələri öz qəlblərində saxlayacaq-lar. Eyni zamanda, Hulusi Akar dediyi kimi, “Həqiqətən bir millət, iki dövlətik, bunu ən kiçik fərdə qədər hər kəs bilir. Xüsusilə, Türkiyədə 83 milyonluq xalqımızın nəbzi Azərbaycan ilə döyü-nür. Buradakı dostlarımıza da dedik, Azərbaycan tək deyil. Bunu hər kəs bilsin. Biz bərabərik, birik, bir millətik. Biz sülhün, sabitliyin tərəfdarıyıq. Təkcə ölkələrimizin təhlükəsizliyi, əmin-amanlığı mənasında deyil, bütün Qafqazın, bütün bölgənin sülh və əmin-amanlıq içərisində olmasının tərəfdarıyıq. Digər tərəfdən, haqqımızın, hüququmuzun, mənafelərimizin də tap-dalanmasına imkan verməyəcəyimizi, bunların qorunması üçün lazım olan nə varsa, edəcəyimizi hamının bilməsini istəyirik”.

Bu sözlərlə, Hulusi Akar bir daha Azərbaycan –Türkiyə heç zaman po-zulmayacağını qətiyyətlə və birmənalı şəkildə bəyan etdi. Bütün bunlar hər birimizdə bir daha qəti əminlik yaradır ki, Azərbaycan --Türkiyə həmrəyliyi, birliyi nəticəsində həm terrorun kökü birdəfəlik kəsiləcək, həm də Ermənistanın, onun havadarlarının Qarabağ işğalına birdəfəlik son qoyu-lacaq. “Bir millət, iki dövlət”in qar-daşlığı, dostluğu, müttəfiqliyi hələ çox qələbələrə, zəfərlərə bələdçilik edəcək.